# "Qarşılıqlı inama və faydalı əməkdaşlığa əsaslanan Yaponiya-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edir"

## Səfir Masamitsu Oki: «Hazırda Yaponiya ilə Azərbaycan arasındakı əlaqələr ən yüksək səviyyədədir və biz gələcəkdə daha da sıx əlaqələr qurmaq arzusundayıq»

**Əııəli. səh 1-də**

Nəzərinizə onu da çadırım ki, mən Azərbaycan dilini şəxsi müəllim və kitablar vasitəsi ilə öyrənmişəm və bu işdə mənə Türk dilini bilməyim köməklik edib. Bu asan dil deyil, ancaq imkan düşdükcə çalışıram ki, Azərbaycan dillində danışım. Mən inkişaf layihələrinin yerinə yetirilməsi çərçivəsində və öz şəxsi səyahətlərimlə bağlı Azərbaycanın hər yerinə səfər etmişəm. Bu səfərlər zamanı yerli əhali ilə Azərbaycan dilində danışırdım, çünki yerli əhali əcnəbilərin onun öz dilində danışığını eşidəndə fikirlərini daha çox səmimiyyətlə bölüşür.

**- Cənab səfir, yeri gəlmişkən, Yaponiya hökuməti və Azərbaycan Respublikası arasındakı dostluq və qardaşlıq münasibətlərinin tarixi və hazırki vəziyyəti barədə fikirlərinizi bilmək maraqlıdır.**

-1991-ci ilin dekabr ayında Yaponiya Azərbaycanın müstəqilliyini tanıdı və 1992-ci ilin sentyabr ayında Azərbaycan ilə diplomatik əlaqələr qurdu. 2000-ci ilin yanvar ayında Yaponiya Bakıda öz səfirliyini açdı. 2005-ci ilin oktyabr ayında isə Azərbaycan Tokioda öz səfirliyini açdı. Elektrik enerjisi istehsalı sahəsində müxtəlif layihələrin həyata keçirilməsi üçün Yaponiya Azərbaycana 1997-ci, 1999-cu və 2005-ci illərdə aşağı faizli kreditlər ayırmışdır. 2009-cu ilin fevral ayında Azərbaycanın 10 kiçik şəhərində su təchizatı və kanalizasiya sistemlərinin yenilənməsi layihəsi üzrə Yaponiya və Azərbaycan arasında aşağı faizli kredit sazişi imzalanmışdır. Beləliklə, dörd aşağı faizli kredit layihələrinin ümumi məbləği 101 milyard yen ( 911 milyon ABŞ dolları) təşkil edir. Biz həmçinin kənd təsərrüfatı, təhsil, səhiyyə, su təchizatı, mədəniyyət və idman sahələrində də qrant layihələri üzrə işlər aparırıq. Bu günə kimi Yaponiyangn Azərbaycana aygrdgrg Rəsmi Gnkiöaf Yardgmgngn ğmumi məbləri 1 milyard ABÖ dollargna zatgb.

Hazırda Yaponiya və Azərbaycan arasındakı əlaqələr bir çox sahələrdə ən yüksək səviyyədədir və biz gələcəkdə daha da sıx əlaqələr qurmaq arzusundayıq. Zati-əliləri Prezident İlham Əliyevin 2006-cı ilin mart ayında Yaponiyaya etdiyi səfər əlaqələrimizin daha da yüksək səviyyədə inkişaf etməsinə təkan verdi. Bundan əlavə, iki ölkə arasında daimi yüksək səviyyəli səfərlər həyata keçirilir. İldə bir dəfə Azərbaycan və Yaponiya Xarici İşlər Nazirlikləri səviyyəsində siyasi dialoqlar aparılır. Bundan savayı, iş adamları və hökumət rəsmiləri birləşdirən Birgə İqtisadi Komissiya çərçivəsində də iqtisadi əlaqələrimizi inkişaf etdirmək məqsədilə illik görüşlər keçirilir. Bu ilin iyun ayında Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov Yaponiyaya səfər edib və Yaponiyanın yüksək səviyyəli rəsmiləri ilə danışıqlar aparıb. Bu danışıqlar müxtəlif sahələrdə, o cümlədən siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, ətraf mühitin mühafizəsi, enerji və sairə kimi sahələrdə əməkdaşlığı əhatə edib.

Əməkdaşlığı genişləndirmək məqsədilə ikitərəfli əlaqələr və ümumi maraq kəsb edən başqa beynəlxalq məsələlərə aid bütün aspektlər daxil olmaqla genişmiqyaslı məsələləri müzakirə etmək üçün iki ölkənin Xarici İşlər Nazirliklərinin arasında daimi görüşlər keçirmək təsdiq olunmuşdur. Ümumiyyətlə, qarşılıqlı inama və faydalı əməkdaşlığa əsaslanan Yaponiya-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edir. Bir sözlə, bütün bu amillər ikitərəfli əlaqələrimizin inkişafı və möhkəmlənməsinə müsbət təsir göstərir. Lakin, onu da qeyd edək ki, ikitərəfli əlaqələrimizin daha çox sahələri əhatə etmə imkanları var. Elə buna görə də, mən gələcəkdə nəinki siyasi və iqtisadi sahələri, həmçinin mədəniyyət, idman, turizm və ətraf mühitin mühafizəsi sahələrində də əlaqələrimizi genişləndirmək arzusundayam.

**- Yaponiya ilə Azərbaycan arasında əlaqələr daha çox hansı sahələrdə özünü büruzə verir?**

-Yaponiya ilə Azərbaycan arasındakı əməkdaşlığın əsas istiqamətləri siyasət və iqtisadiyyat sahələrinə yönəldilib.

Rəsmi İnkişaf Yardım proqramları çərçivəsində çoxlu layihələr həyata keçirilmişdir. Bu proqramlar qrant yardımı və aşağı faizli kreditdir. Hər il qrant yardımı layihələri səhiyyə, energetika, kənd təsərrüfatı, mədəniyyət və idman kimi geniş miqyası əhatə edən sahələrdə həyata keçirilir. Məsələn, keçən il biz Bakı şəhərinin Təcili-Tibbi Yardım Xidmətini tibbi avadanlıqlarla təmin etmişik. Həmçinin biz ehtiyacı olan fermerləri kənd təsərrüfatı texnikası ilə təmin etmişik. Biz Azərbaycanın rayonlarında çoxlu məktəblər və klinikalar tikmiş, həmçinin su təchizatını da yaxşılaşdırmışıq. Məsələn, bu ilin oktyabr ayında biz aşağıdakı qrant layihələri üzrə müqavilələr imzaladıq:

**a)** Qax, Saatlg və Kğrdəmir rayonlargnda tibbi məntəqənin tikintisi layihəsi;

**b)** Öamaxg və Fğzuli rayonlargnda su təchizatg sisteminin yegiaödgrglmasg və tikintisi layihəsi;

**c)** Biləsuvar rayonunda karate və cğdo idman vəsaitlərinin təkmilləɛdirilməsi layihəsi.

Qeyd etdiklərimlə yanaşı, təhsil, səhiyyə, və su təchizatı sahələrinin inkişafı üzrə biz Azərbaycanın müxtəlif rayonları ilə sıx əməkdaşlıq edirik.

Aşağı faizli kreditə gəldikdə, biz bu ilin fevral ayında kiçik şəhərlərdə su təchizatı və kanalizasiya sisteminin təkmilləşdirilməsi layihəsi üzrə müqavilə imzalamışıq. Bu müqavilə Azərbaycanın 10 rayonunu- Şirvan, Salyan, Neftçala, Xaçmaz, Yevlax, Bərdə, Xızı, Qusar, Qobustan və Naftalanı əhatə edəcəkdir. Layihənin dəyəri 300 milyon ABŞ dollarıdır. Biz ümid edirik ki, layihə bitdikdən sonra bu rayonların sakinlər təmiz içməli su və normal kanalizasiya sistemi ilə təmin olunacaqlar. Hazırda Yaponiyangn Azərbaycana aygrdgrg yardgmgn ğmumi məbləri 1 milyard ABÖ dollargndan zoxdur.

Əlavə olaraq, biz təhsil və mədəniyyət sahələrində, xüsusi ilə də adi insanlar səviyyəsində əlaqələrin inkişafına çox diqqət veririk.

Təhsil sahəsində iki dövlət arasında mövcud olan əməkdaşlıq olduqca fəaldır. Azərbaycanlı tələbələrin Yaponiyada təhsil almaları üçün Yaponiya Hökuməti tərəfindən ayrılmış bir neçə Təqaüd Proqramımız var. Bu proqramlar Yaponiyada təhsil almaq istəyən bakalavr, magistr və həmçinin yapon dili ixtisası üzrə oxuyan tələbələr üçün nəzərdə tutulub. Bundan başqa, orta məktəb müəllimləri də Yaponiyaya dəvət olunurlar ki, Yapon təhsil sistemi ilə yaxından tanış olsunlar.



Onu da bildirim ki, bu günə kimi 26 azərbaycanlı tələbə bizim səfirlik vasitəsi ilə Yaponiya Hökumətinin Təqaüd Proqramında iştirak edib. Onlar tibb, təhsil, mühəndislik, iqtisadiyyat və başqa sahələri bitirmiş tələbələrdir.

Bu yaxınlarda Bakı Dövlət Universitetinin rektoru, Milli Məclisin üzvü, akademik Abel Məhərrəmov və Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı Yaponiyaya səfər etmişlər. Onların hər ikisi Yaponiya universitetləri ilə əlaqələr yaratmağa nail olmuşlar.

Bu ilin iyun ayında Təhsil Naziri cənab Misir Mərdanov Yaponiyaya səfər edib və Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Naziri və qabaqcıl universitetlərin rektorları ilə görüşlər keçirib. İki ölkə arasında tələbə mübadiləsini genişləndirmək və Yapon dilini Azərbaycan təhsil müəssisələrində geniş miqyasda tətbiq etmək qərara alınmışdır. Bu səfərin nəticəsi olaraq, hazırda Yapon dili Bakının üç məktəbində 5-ci siniflərdə tədris olunur.

Əlbəttə, başqa sahələrdə də əməkdaşlığı inkişaf etdirmək olar, xüsusilə də idman, turizm və ekologiya sahələrində.

Azərbaycan xalqı cüdo və karate kimi ənənəvi Yapon idmanları ilə çox maraqlanır. Biz bilirik ki, sizin cüdoçular, həmçinin Olimpiya qızıl medalçısı Elnur da Yaponiyaya tez-tez səfər edir. Həm Yapon, həm də Azərbaycan idmançıları güləşdə çox güclüdürlər. Biz ümid edirik ki, idman sahəsində də mübadilələrimizi inkişaf etdirəcəyik.

Düşünürəm ki, turizm sahəsində də əlaqələrimizi daha da inkişaf etdirə bilərik. Mən istərdim ki, daha çox azərbaycanlı Yaponiyaya səfər etsin və müasir Yaponiyanı və onun ənənəvi mədəniyyətini başa düşsün. Həmçinin mən istərdim ki, daha çox yapon Azərbaycana gəlsin və onun gözəl təbiətini və qonaqpərvərliyini yüksək qiymətləndirsin.

Eyni zamanda, mən istərdim ki, birgə ətraf mühit məsələləri üzərində çalışaq. Bütün dünya qlobal istiləşmə təhlükəsi ilə üz-üzədir. Bu nöqteyi-nəzərdən, enerjidən səmərəli istifadə və həmçinin onun qorunması vacibdir. Buna görə də istərdim ki, günəş enerjisi və külək enerjisi layihələrində əməkdaşlığımızı davam etdirək.

**- Ölkəmizdə mövcud olan problemlərdən biri də əlillər problemidir. Bu baxımdan Yaponiya Hökuməti Azərbaycanda əlillərlə bağlı hansı layihələri həyata keçirib və növbəti mərhələlərdə hansı tədbirləri həyata keçirməyi planlaşdırır?**

-Ümumi Qrant Yardımı layihəsi, Ot kökləri və İnsan təhlükəsizliyi Qrant yardımı proqramı vasitəsi ilə biz əlillərin həyat tərzini yaxşılaşdırmaq üçün bir neçə layihələr həyata keçirmişik. Yaponiya tərəfindən 2003-cü il ərzində ümumi məbləği 3,38 milyon ABŞ dolları təşkil edən "Reabilitasiya mərkəzlərindəki reabilitasiya avadanlıqlarının təkmilləşdirilməsi layihəsi" üzrə Bakıdakı Respublika Reabilitasiya Mərkəzi və Uşaqların Reabilitasiya Mərkəzi avadanlıqla təmin edilmişdir. Həmçinin Ot kökləri və İnsan təhlükəsizliyi Qrant yardımı proqramı vasitəsi ilə Yaponiya sosial təminatı zəif olan insanların çətinliklərini yüngülləşdirmək üçün birbaşa köməkliyi təmin edir. Bu proqram vasitəsi ilə bu günə kimi həyata keçirilmiş layihələrin ümumi məbləği 405728 ABŞ dolları təşkil edir və bura əlillərin yaşam mühitini, reabilitasiya səviyyəsini və tibb xidmətini yaxşılaşdırmaq üçün binaların bərpası və avadanlıqların təminatı daxildir. Bu layihələr aşağıdakılardır:

**1.** Bakı şəhərində psixonevroloji uşaq internatının təkmilləşdirilməsi;

**2.** Əlillərin məşğulluğunu artırmaq məqsədilə Bakı şəhərində onların işlədiyi müəssisədə konservləşdirmə üzrə seminarın təşkili;

**3.** Sumqayıt şəhərində psixonevroloji mərkəzin bərpası;

**4.** Türkan qəsəbəsində əlil uşaqlar üçün internatın bərpası;

**5.** Əlil qadınların məşğulluğunu artırmaq məqsədilə konserv zavodunun genişləndirilməsi;

**6.** Mingəçevir şəhərində psixonevroloji sanatoriyanın təkmilləşdirilməsi.

Əlil insanların çətinliklərini yüngülləşdirmək üçün bu kimi işləri gələcəkdə də davam etdirmək niyyətindəyik.

**- Yaponiyada bütün kateqoriyadan olan əlillərlə, eyni zamanda əmək fəaliyyəti zamanı sağlamlıq qabiliyyətini itirmiş şəxslərlə bağlı hansı məlumatları oxucularımızın diqqətinə çatdırmaq istərdiniz?**

-Yaponiyanın Səhiyyə və Rifah Nazirliyinin 2009-cu il üçün statistikasına əsasən Yaponiyada əlil insanların ümumi sayı aşağıdakılardır:

**a)** 3, 663, 000 nəfər fiziki əlil;

**b)** 547, 000 nəfər nevroloji əlil;

**c)** 3, 028, 000 nəfər ruhi xəstəlik əlilləri.

Yaponiya Hökuməti Yaponiyadakı əlil insanlara dəstək və köməklik göstərir. Əlil insanlar ilə bağlı qanuni sistem əlilliyə görə bazis təqaüdü, maliyyə köməklik sistemi, tibb sığortası, əlillərin məşğulluğunu təmin etmək və sairə kimi tədbirlər vasitəsi ilə əlillərin tam iştirakını və bərabərliyini təmin edir.

Əlil insanların çox hissəsi mağazaya alış-veriş və hər hansı bir tapşırığı yerinə yetirmək üçün yerli hökumət proqramları tərəfindən pulsuz təmin edilən "bələdçi-köməkçisi"nə etibar edirlər. Bu köməkçilər əvvəlcədən sifariş olunurlar və adətən, gündüz işləyirlər. Kor insanların yollarda hərəkət etmələri və zədə almamaları üçün bir çox səkilər, yol keçidləri, kəsişmələr, pilləkənlər, qatar və metro stansiyalarındakı platformalar qabarıq nöqtələr və tire işarələri olan sarı zolaqlara malikdirlər. Xeyriyyə cəmiyyətləri kor insanlara bələdçi itlərin böyüdülməsi və təlimi üçün pul ödəməyə köməklik göstərirlər.

Əlillərə kömək məqsədi ilə çoxlu faydalı cihazlar ilə təchiz olunmuş əlil arabası və həmçinin əlil arabası üçün furqon və maşınlarda quraşdırılan liftlər kimi nəzərə çarpan texnologiyalar yaradılmışdır. Əlillərə kömək göstərən robotları yaratmaq üçün çoxlu pul xərclənilib. Cənab Spun (Qaşıq) adlanan, ilk kütləvi istehsal olunan əlil insanlara yemək yeməyə köməklik göstərən robot yaradılmışdır. Vaseda Universitetindəki tədqiqatçılar adamı pilləkənlər ilə yuxarı və aşağı daşıyan robot yaratmışlar.

İndiki zamanda küçələrdə kor adamlara bələdçilik edən itləri görmək artıq qeyri-adi hal deyil. Lakin biz kor insanların qayğısına qalan daha çox itlər təlim etməliyik.

**-Yaponiyada əlillərin təhsil alma mexanizmi necədir?**

-Bu gün Yaponiya çoxlu müxtəlif yerlərdə və müxtəlif formalarda bir çox təhsil imkanları təklif edir. Hazırda Yaponiyada ümumi sayı 87000 şagird təşkil edən əlillər üçün 995 xüsusi məktəblər mövcuddur. Əlil şagird və tələbələr, korlar, karlar və başqa kateqoriyaya aid olan əlillər məktəblərdə və ya əlliliyin növü və dərəcəsindən asılı olaraq adi ibtidai və orta məktəblərdəki xüsusi siniflərdə lazımi təhsil alırlar.

Hazırda bizim ölkənin xüsusi təhsil sistemi zənginləşdirilir. Təxminən 1.6% (0.17 milyon) uşaq evlərinə yaxın məktəblərdə və ya xüsusi məktəblərdə və siniflərdə müxtəlif növ xüsusi təhsil xidmətləri alır. Bu məktəblər əlilliyin növünə və dərəcəsinə xüsusi diqqət verərək uşaqların cəmiyyətin bütün sahələrində müstəqil iştirak etməsi üçün qabiliyyətlərini və bacarıqlarını mümkün qədər maksimal dərəcədə inkişaf etdirməkdən ötrü onları əsaslı planlaşdırılmış təhsil ilə təmin edir.

**-Yaponiyada əlillərlə bağlı ictimai qurumlar hansı formada fəaliyyət göstərir?**

-Yaponiyada əlil insanların hüquqlarını irəli sürən bir sıra ictimai təşkilatlar mövcuddur. Yaponiya Əlillər Forumu bu təşkilatların bəzilərini bir mərkəzdə birləşdirir. Yaponiya Əlillər Şurası (JD) milli əlillər təşkilatlarından ibarətdir. Bu şura ictimai maarifləndirici kompaniyalar keçirir, dövlət və beynəlxalq konfranslarda iştirak edir və əlillərin problemləri ilə bağlı jurnal nəşr etdirir. Yaponiya Əlillər Şurası və onun üzvləri əlillərin təhsili və məşğulluğu ilə bağlı maneələri aradan qaldırmaq və əlil olan yapon vətəndaşların ictimai həyatda tam iştirakına çalışırlar.

Əlil insanların reabilitasiyası üçün Yaponiya cəmiyyəti (JSRPD) həm Yaponiyada, həm də xaricdə əlil insanların reabilitasiyasını və onların cəmiyyətdəki bütün sahələrdə iştirakını irəli sürməyə çalışır.

Yapon Karlar Federasiyası (JFD) Yaponiyadakı karların və eşitmədə çətinlik çəkən insanların hüquqlarını irəli sürməyə çalışır. Yapon Karlar Federasiyasının fəaliyyətinə ictimai maarifləndirici kompaniyaların keçirilməsi və hökumətə dövlət və yerli səviyyədə təsir göstərmək daxildir.

Yaponiyada həmçinin əlillərə dəstək verən başqa təşkilatlar da fəaliyyət göstərir.

Yaponiya Beynəlxalq Əlillərin Milli Məclisi (DPİJ) Beynəlxalq Əlilərin Milli Məclisinin (DPİ) üzvüdür. Bu ümumdünya təşkilatı imkanların bərabərləşməsi və əlil insanların ictimai həyatın bütün sahələrində tam iştirakını müdafiə edir.

Yaşlıların və Əlillərin Məşğulluğu üzrə Yapon Təşkilatı (JEED) Yaponiyada peşə reabilitasiyası, iş təminatlarının stimullaşdırılması və ictimai maarifləndirici kompaniyalar vasitəsilə əlil insanların tam məşğulluğunu təmin etmək sahəsində çalışır.

Korlar Federasiyası (JFB) kor insanların rifahını irəli sürür. Dünya Korlar Birliyinin bir üzvü kimi Korlar Federasiyası görmə qüsuru olan insanların insan hüquqları, rifahı, təhsili və məşğulluğu üçün strateji qərarlar haqqında petisiyaları və tələbləri dövlət və yerli Yapon hökumətinə irəli sürməklə məşğuldur.

**-Cənab səfir, maraqlı və məzmunlu müsahibəyə görə Sizə təşəkkür edirik.**

***Tahir Xudiyev,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***



**Əvvəli səh. 1-də**

Biz humanitar təşkilatlar və xeyriyyəçi insanların köməyi ilə bu İnternat Evini hər il təmir etdiririk. Hazırda İnternat Evinin su artezianına ehtiyacı var. Çox istərdik ki, xanım Kanta bizim bu problemimizin həllinə də köməklik göstərsin.

Bir faktı da xüsusi vurğulamaq istəyirəm ki, bu İnternat Evinin belə təmiz və gözəl olması və müasir standartlara uyğun təmir edilməsi üçün xanım Kanta Taluktar Stankina böyük zəhmət çəkib. Mən xanım Kantaya belə xeyirxah fəaliyyətinə görə kollektivimiz adından öz dərin təşəkkürümüzü bildirirəm.

Sonra mərasim başlandı. Toplantını giriş sözü ilə səfir cənab Pyer Kristofer Stankina açdı. Cənab səfir bildirdi ki, bu, onun xanımının gördüyü xeyirxah işlərdən biridir. Səfir onu da qeyd etdi ki, onlar belə layihələri respublikamızın hər bir bölgəsində həyata keçirmək arzusundadırlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlil, tənha və ahıllara sosial xidmətin təşkili şöbəsinin müdiri Azad Tağızadə, Şamaxı Rayon İcra Hakimiyyətinin nümayəndəsi Əşrəf müəllim, İnter-

# Şamaxıda xeyirxah tədbir



nat Evinin direktoru Mübariz Məmmədov və başqaları toplantıda çıxış edərək səfirə və onun xanımına gördüyü xeyirxah və nəcib işlərə görə təşəkkür etdilər.

Toplantıda xanım Kanta Taluktar Stankina çıxış edərək tədbir iştirakçılarına öz təşəkkürünü bildirdi. O, dedi ki, artıq bu gün Almaniya səfirliyi tərəfindən təmir olunmuş sanitar qovşağı sizin istifadənizə verilib. Bu tək mənim əməyim deyil, biz bir komanda halında bu ideya ətrafında birləşdik. Həyat yoldaşıma da çox təşəkkür edirəm ki, mənim təşəbbüsümə, ideyama dəstək oldu. Azad müəllimə də öz təşəkkürümü bildirəm ki, ilk gündən mənimlə bir dost kimi fəaliyyət göstərdi. Öz fikirləri ilə mənə dəstək oldu. Mən istədiyim vaxt ona zəng vururam və o, öz tövsiyələri ilə mənə kömək edir. Mənim hələ bir ideyam da var. Azad nüəllim atrıq bu barədə məlumatlıdır. Mən bu respublikada bütün əlil və uşaq evlərində ola bilmirəm. İdeyam isə bundan ibarətdir ki, elə layihələr həyata keçirim ki, insanlar digər bölgələrdən gələrək buradan nümunə götürsünlər, öyrənsinlər və öz fəaliyyətlərində tətbiq etsinlər. Zənnimcə, işi təkcə sevmək yox, düşünmək və həyata keçirmək lazımdır. Bu gün yenicə təmirdən çıxmış bu İnternat Evində hamam və sanitar qovşağı Avropa standartlarına uyğun qurulub. Hər bir ideyanın arxasında insanlar dayanır. Əlillər üçün tutacaqlar da var. Onlar çox möhkəmdir. Xəstə insanlardır, tutub duranda qırılmasın. Həmin tutacaqların hündürlüyü, parametri əlillərin ehtiyacları üçün nəzərdə tutulub, standartlara uyğundur. O vaxt biz təmirə başlayanda Mübariz müəllim bildirdi ki, 2 duş kabinası tikilsin. Mən dedim ki, Almaniyada belə deyil. Əlillərə vaxt məhdudiyyəti qoyulmamalıdır. 2 duş kabinası az olar, dedim. Qoy çox olsun ki, onlara rahat olsun. Həm də təkadamlıq kabinalar olsun. Çünki əlil də insana layiq həyat tərzi yaşamalıdır.

Yaxın vaxtlarda Norveçdən və Almaniyadan ekspert-mütəxəssislər Azərbaycana gələcəklər. Onlar Buzovnadakı əlillər evinə təşrif buyuracaqlar. Onlar buraya da gələ bilərlər.

Xanım Kanta onu da qeyd etdi ki, Azərbaycana 33 əlil arabası gətirilib ki, onlar bir çox üstünlükləri ilə əvvəlki arabalardan fərqlənir. Bunlardan 20-si Saray qəsəbəsində yerləşən əlil evinə, 13-ü isə Şağana göndərilib. Orada olan əlillər çox böyük maraq və sevinclə bu arabaları qarşılayıblar.

Toplantıda çıxış edən II qrup əlil Fazil İsmayılov bildirdi ki, xanım Kanta Taluktar Stankina onun cərrahiyyə əməliyyatına və eləcə digər əlillərin dişlərinin müalicəsinə və protezlərin düzəldilməsinə birbaşa köməklik edib. O, bütün bunlara görə xanım Kantaya öz səmimi təşəkkürünü bildirdi. F. İsmayılov həm də onlara əsl ata qayğısı göstərən İnternat Evinin direktoru M. Məmmədova da öz dərin təşəkkürünü bildirdi.

Yeri gəlmişkən, əməkdaşlarımız Şamaxıda olarkən rayon sakinləri arasında son vaxtlar İnternat Evində aparılmış işlər barədə sorğu keçirmişlər. Yerli sakinlərin sözlərinə görə, əvvəllər buralar bərbad vəziyyətdə olub. Mübariz müəllim bu İnternat Evinə direktor təyin ediləndən sonra hər şey yaxşıya doğru xeyli dəyişib. İnternat Evinin həyətinə ayaq basan hər bir şəxs buranın təmizliyinə və gözəlliyinə valeh olur.

Tədbir zamanı cənab səfir Pyer Kristofer Stankina Tahir Xudiyevə bildirmişdir ki, Almaniyanın maliyyə naziri hər iki ayaqdan şikəstdir, əlil arabasında hərəkət edir.Səfir eyni zamanda xalqımızın dünya şöhrətli alimi, Redaksiya Heyətimizin üzvü, akademik Rafiq Əliyevi şəxsən tanıdığını, ona böyük hörmət və ehtiram bəslədiyini bildirmişdir.

***Fuad Xudiyev,***
***Şərif Süleymanov***